## «Ustaddan şagirdə» layihəsi



Qəbələdə Muğam aləmi çərçivəsində «Ustaddan şagirdə» layihəsi üzrə növbəti tədbir keçirilmişdir. Layihə şəhər 2 saylı tam orta məktəbdə baş tutmuşdur.



Respublikanın tanınmış muğam ustası, xalq artisti Zabit Nəbizadə başda olmaqla onun bilavasitə rəhbərliyi və iştirakı ilə Qəbələ rayon Uşaq İncəsənət Məktəbinin müəllim və şagirdlərinin qatıldığı bu muğam bayramı Hacıbaba Abdurahmanov və Ceyhun Mirzəyev kimi gənc istedadları bir daha üzə çıxardı. Onların ustad sənətkarlarla birgə ifa etdikləri «Mirzə Hüseyn» segahı tamaşaçı zalını ayağa qaldırdı. Yerli musiqiçilərdən Elman Əfəndiyev (tar), Xəqani Abdusalamov (kamança) və Şaiq Mirzəyevin (nağara) müşaiyyəti də sürəkli alqışlarla qarşılandı və yaddaqalan oldu.

**Foto və mətn**
**Səhrab UMUYEVİNDİR.**

## Yarışlara start verildi

Respublikamızın hər yerində olduğu kimi Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzində də ümummilli lider, ulu öndər Heydər Əliyevin 90 illik yubileyi ilə əlaqədar bir sıra tədbirlər həyata keçirilir. Aprel ayının 3-dən etibarən Tədris Mərkəzinin şagirdləri arasında ulu öndərin 90 illik yubleyinə həsr olunmuş idman yarışlarına start verildi.

Yarışlar idmanın futbol növü ilə başlandı. Tədris mərkəzində təhsil alan şagirdlər qruplar üzrə öz qüvvələrini sınadılar. May ayının 7-nə qədər idmanın voleybol, şahmat, dama, qaçış növləri üzrə yarışlar keçiriləcək. Qalib gəlmiş komandalar fəxri fərmanlarla mükafatlandırılacaqlar.

**Carul BABAYEV,**
**tədris mərkəzinin fiziki tərbiyə rəhbəri.**

## Pərakəndə əmtəə dövriyyəsinin həcmi artıb

Bu ilin ilk iki ayında istehlak bazarında dinamik inkişaf davam edib. Əhaliyə 3,9 milyard manatlıq, yaxud keçən ilin müvafiq dövrünə nisbətən 8,8 faiz çox istehlak malları satılıb və pullu xidmətlər göstərilib.

Dövlət Statistika Komitəsindən aldığımız məlumatda bildirilir ki, pərakəndə ticarət şəbəkəsində satılmış əmtəələrin həcmi və əhaliyə göstərilən pullu xidmətlərin ümumi həcminin 93,9 faizi özəl müəssisələrin fəaliyyəti sayəsində formalaşıb. Bu müəssisələrdə satılmış istehlak mallarının və göstərilmiş xidmətlərin həcmi 9,6 faiz artaraq 3,7 milyard manat olub. Yanvar-fevral aylarında iaşənin dövriyyəsi daxil edilməklə, pərakəndə əmtəə dövriyyəsinin həcmi keçən ilin eyni dövrünün səviyyəsini 9,3 faiz üstələyib.

İstehlak bazarında 1699,6 milyon manatlıq ərzaq, 1250,5 milyon manatlıq qeyri-ərzaq malları satılıb. Onların real həcmi uyğun olaraq 3,2 və 18,6 faiz artıb.

## Əhaliyə göstərilən informasiya və rabitə xidmətləri 70 faizdən çoxdur

İnformasiya və rabitə sektorunda 2013-cü ilin yanvar-fevral aylarında təsərrüfat subyektlərinə və əhaliyə 235,9 milyon manatlıq xidmət göstərilib.

Dövlət Statistika Komitəsinin məlumatına görə, bu, əvvəlki ilin müvafiq dövrünə nisbətən müqayisəli qiymətlərlə 16 faiz çoxdur. Əhaliyə göstərilmiş informasiya və rabitə xidmətlərinin payı 72,2 faiz təşkil edib.

Xidmətlərdən əldə olunmuş gəlirlərin 57,2 faizi mobil telefon rabitəsindən yaranıb. Keçən ilin eyni dövrü ilə müqayisədə bu xidmətlərin həcmi 12,5 faiz artaraq 135 milyon manat təşkil edib.

# Erməni terrorçuların soyqırım siyasətinin nəticələri

XX əsrin sonunda SSRİ dağılma ərəfəsində olarkən erməni millətçiləri Azərbaycan xalqına qarşı dövlət səviyyəsində dəstəklənən terror və soyqırım siyasəti aparmışlar. Həmin dövrdə baş verən hadisələri xronoloji ardıcıllıqla bir daha oxucuların nəzərinə çatdırırıq.

—1988-ci ilin əvvəllərindən başlayaraq həmin ilin sonuna qədər Ermənistan Respublikasından azərbaycanlıları məcburi şəkildə qovmağa başladılar;

—1988-ci il fevralın 13-də Xankəndində ilk mitinqlər başlandı;

—1988-ci il fevralın 20-də Dağlıq Qarabağ Muxtar Vilayəti XDS-nin növbədənkənar sessiyasında DQMV-nin Azərbaycanın tərkibindən çıxraldılması haqqında qanunsuz qərar qəbul olundu;

—1988-ci ilin fevralında Əsgəranda iki azərbaycanlı qətlə yetirildi;

—1988-ci il fevralın 27—28-də Sumqayıt şəhərində SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin və erməni xüsusi xidmət orqanlarının əli ilə planlaşdırılan bir qırğın aksiyası həyata keçirildi;

—1988-ci ilin noyabrında Spitakda 36 nəfər azərbaycanlı qətlə yetirildi;

—1989-cu ildə Tbilisi—Bakı marşrutu ilə hərəkət edən avtobus partladıldı, 5 adam həlak oldu, 25 nəfər isə yaralandı;

—1991-ci il noyabrın 20-də «Şuşa» üzərində Azərbaycana məxsus vertolyot vuruldu, 19 nəfər həlak oldu;

—1992-ci il yanvarın 28-də Şuşa səmasında Azərbaycana məxsus olan daha bir vetolyota Xankəndi tərəfindən «Stingir» raketi ilə vuruldu, ekipaj üzvləri və sərnişinlər 47 nəfər həlak oldu;

—8 may1992-ci ildə erməni silahlı dəstələri illərlə arzusunda olduqları məqsədlərinə-- Azərbaycan mədəniyyətinin beşiyi sayılan Şuşanın işğalına nail oldular;

—Şuşanın işğallı nəticəsində 72 nəfər şəhid oldu, 25 nəfər itkin düşdü, 30 min Şuşalı Azərbaycanın müxtəlif rayonlarına səpələndi;

—Laçın rayonunun 1835 kv. km ərazisi 18 may 1992-ci ildə işğal olundu, 65 min laçınlı Azərbaycanın 64 rayonuna səpələndi;

—Kəlbəcər rayonunun 1936 kv.km ərazisi 3-4 aprel 1993-cü ildə işğal olundu, 220 nəfər həlak oldu, 321 nəfər itkin düşdü, 60 min kəlbəcərli Azərbaycanın 56 rayonuna səpələndi.

—Ağdam rayonunun 1094 kv. km ərazisi 23 iyul 1993-cü ildə işğal olundu, 6 min əhali həlak oldu, 130 min nəfər 58 şəhər və rayona səpələndi;

—Cəbrayıl rayonunun 1050 kv. km ərazisi 23 avqust 1993-cü ildə işğal olundu, 360 nəfər həlak oldu, 166 nəfər şikəst oldu, 60 min əhali 58 rayona səpələndi;

—Füzuli rayonunun 1386 kv. km ərazisi 23 avqust 1993-cü ildə işğal olundu, 733 nəfər şəhid, 1209 nəfər əlil oldu, 181 nəfər itkin düşdü, 105 min füzulili 60 rayona səpələndi;

—Qubadlı rayonunun 802 kv.km ərazisi 31 avqust 1993-cü ildə işğal olundu. 238 nəfər şəhid oldu, 100 nəfər itkin düşdü, 30 min yerli əhali Azərbaycanın 47 rayonuna səpələndi;

—Zəngilan rayonunun 707 kv. km ərazisi 30 oktyabr 1993-cü ildə işğal olundu, 235 nəfər şəhid oldu, 200 nəfər şikəst oldu, 35 min zəngilanlı 43 rayona səpələndi.

Bütün bunlardan əlavə Ermənistan Respublikasının silahlı qüvvələri SSRİ rəhbərliyinin və regionda qalan ordu birləşmələrinin köməyi ilə Azərbaycan ərazilərində qalan maddi və mənəvi sərvətlərin, tarixi abidələrin talan və məhv edilməsini də həyata keçirdilər.

Beləliklə, Azərbaycanın 20 faiz, yəni 17 min kv. km ərazisi Ermənistan Respublikasının hərbi-siyasi işğalına məruz qaldı, Hadisələr başlanan andan 18 mindən çox azərbaycanlı qətlə yetirilmiş, 20 min dinc sakin yaralanmış, 50 mindən çox insan əlil olmuşdur. Azərbaycana təqribən 100 milyard ABŞ dolları miqdarında ziyan vurulmuşdur.

**Aslan CƏLİLOV.**